# Azərbaycan və Türkiyə dostluğu, müttəfiqliyi sarsılmazdır



**Oqtay QASIMOV,**
**politoloq.**

**Türkiyədə 2023-cü ilin fevralında baş verən zəlzələ fəlakəti qardaş ölkə üçün olduqca ağır nəticələrə gətirib çıxardı. Belə ki, 50 mindən artıq insanın həyatını itirdiyi bu dağdıcı zəlzələdə 13 böyük şəhər və vilayət demək olar ki, yer üzündən silindi. Qardaş Türkiyənin bu çətin anında ilk yardım əlini uzadan dövlət Azərbaycan oldu. Xalqımız da öz növbəsində bu ağır günlərdə qardaş və bacılarını tək qoymadı, onlara maddi və mənəvi dəstək göstərdi.**

Fəlakətdən sonra Prezident İlham Əliyevin göstərişi ilə Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin tikintisinə başlanıldı və artıq bu inşaat işləri başa çatıb. Yaxın zamanlarda məhz Azərbaycan və Türkiyə prezidentlərinin də iştirakı ilə həmin yaşayış kompleksi istifadəyə veriləcək. Türkiyə mətbuatının verdiyi xəbərə görə, min ailədən artıq insanın yerləşəcəyi bu şəhərcik yüksək səviyyədə, çox keyfiyyətli və zəlzələyə davamlı inşa edilib.

Bu hadisə bir daha onu göstərir ki, Azərbaycan və Türkiyə dostluğu, qardaşlığı, müttəfiqliyi sarsılmazdır. İki qardaş xalq bir-birinin həm sevincinə, həm də kədərinə şərikdir. Yaşayış kompleksinin istifayə verilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına müsbət dinamika qatacaq. ■

Respublika .- 2025.- 11 iyun (№118).-